## *Nəriman NƏRİMANOV*-155

# AGAHLIQ SƏLTƏNƏTİNİN ƏMƏLİSALEH SAHİBİ

***(Əvvəli ötən sayımızda)***

Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən erməni millətçilərinin "Böyük Ermənistan " yaratmaq iddiası sovetləşmədən sonra davam etdirildi ki, bu da məhz sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə həyata keçirilirdi. Belə ki, Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Bu azmış kimi, 1921-ci il iyunun 12-də Ermənistan hökuməti Dağlıq Qarabağın "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan olunduğu haqqında dekret qəbul etdi. Bir qədər sonra onlar qətnaməni ləğv etmədən Dağlıq Qarabağ və digər mübahisəli hesab etdikləri ərazilər üzrə komissiya yaratmaq təklifini irəli sürdülər. [13]

1921-ci ildə bir-birinin ardınca qəbul olunan üç qərardan irəli gələn nəticələri də N.Nərimanovun siyasətinin uğuru kimi qiymətləndirmək olar. 1921-ci il iyunun 19-da Ermənistan tərəfindən "Dağlıq Qarabağın Ermənistana yenidən birləşdirilməsi haqqında" dekret həyata keçirilmədi, iyunun 26-da Azərbaycan XKS-nin qərarı ilə Ermənistanın Dağlıq Qarabağda olan nümayəndəsi Mravyanın fəaliyyəti qadağan olunaraq xətm edildi.

İyunun 27-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosu və Təşkilat Bürosunun iclası keçirildi. İclas «Tiflisdə komissiyanın işi ilə əlaqədar Azərbaycanla Ermənistanın sərhədləri haqqında» məsələyə baxıb aşağıdakı qərarı qəbul etdi:

1. Siyasi Büro və Təşkilat Bürosu Dağlıq Qarabağın Azərbaycana şəksiz iqtisadi meylini nəzərə alaraq, Dağlıq Qarabağ haqqında məsələnin Bekzadyan tərəfindən qoyuluşunu qəbuledilməz sayır. Məsələ həmin mənada da həll olunmalıdır.

2. Ona görə də erməni və türk əhalili yerlərin müvafiq olaraq Ermənistana və Azərbaycana ayrılması təklifi inzibati və iqtisadi məqsədəuyğunluq baxımından qəbul edilə bilməz.

İyun ayının 28-də N.Nərimanovun sədrliyi ilə Azərbaycan Xalq Komissarları Sovetinin (bundan sonra - Azərbaycan XKS) yeni iclası çağırıldı və A.Myasnikovun (Myasnikyan) "Dağlıq Qarabağı Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan edən bəyanatı rədd edildi. A.Mravyanın geri çağırılması məsələsi qoyuldu.

Bununla da, iki sovet respublikası arasında ixtilaflar artdığından1921-ci il iyulun 4-5-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. Məsələnin müzakirəsində Rusiya Kommunist(bolişeviklər)Partiyası Mərkəzi Komitəsinin üzvü Stalin, RK(b)P Qafqaz bürosunun üzvləri Q.Orconikidze, S.Kirov, A.Myasnikov, F.Maxaradze, N.Nərimanov, A.Nazaretyan, Y.Fiqatner, İ.Oraxelaşvili və başqaları iştirak etdilər. Bu zaman iki nöqteyi-nəzər ortaya çıxmışdı. S.Kirovun təklifinə görə Qarabağın dağlıq hissəsi Azərbaycandan alınaraq Ermənistan SSR-nə verilməli idi. Ancaq N.Nərimanov qətiyyətlə buna etiraz etmiş və bildirmişdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi tələbi bu iclasda ilk dəfə məhz Kirov tərəfindən ortaya atılmışdı. İyulun 4-də axşam iclasında Kirov-Myasnikov qruplaşmasınm (S.Kirov, A.Myasnikov, Q.Orconikidze, Y.Fiqatner) təklifi ilə Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında əsassız və qərəzli qərar qəbul edilmişdi.[13] Məsələnin belə bir ciddi xarakter aldığını görən N.Nərimanov Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-nə verilib-verilməməsi barədə bütün Qarabağ əhalisi arasında rəy sorğusu keçirməyi təklif etdi. N.Nərimanovun bu təklifinə qarşı olan Kirov-Myasnikov qruplaşması bildirdi ki, rəy sorğusu bütün Qarabağda deyil, yalnız Qarabağın dağlıq hissəsində yaşayan ermənilər arasında keçirilsin. Bu məsələ üzrə səsvermədə də Kirov-Myasnikov qruplaşması qalib gəldi. İclasda Qarabağın Azərbaycan hüdudlarında saxlanılması lehinə N.Nərimanov, F.Maxaradze, A.Nazaretyan, əleyhinə Q.Orconikidze, A.Myasnikov, S.Kirov, Y.Fiqatner səs verdilər. Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə verilməsi və rəy sorğusunun yalnız ermənilər arasında keçirilməsi lehinə Orconikidze,Y.Fiqatner, S.Kirov, A.Myasnikov, A.Nazaretyan səs verdilər. İclasın sonunda N.Nərimanovun təkidi ilə Qarabağ məsələsinin Azərbaycan üçün böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq RK(b)P MK-nın Qafqaz bürosu bu məsələ barədə RK(b)P MK-nın qəti qərarın çıxarılmasmı zəruri saydı.] N.Nərimanovun mövqeyini Maxaradze və Nazaretyan müdafiə edir, Orconikidze, Kirov, Myasnikov və Fiqatner isə əleyhinə səs verirdilər. N.Nərimanov həqiqətən həmin vaxt əsəbiləşmiş, cəsarətlə və hiddətlə Stalinin, Orconikidzenin üstünə qışqıraraq onlara demişdir:"Mən bircə gün də qoymaram Qarabağ erməni tapdağı altında qalsın. Mən Qarabağı ya qaytaracağam, ya da bu məsələni başqa yolla həll edəcəyəm!"

Əvvəllərdə də Qarabağı ermənilərə verməyi təklif edən qaniçən Əliheydər Qarayevə Nəriman Nərimanov sərt cavab verərək demişdi:

-Əliheydər, Qarabağ sənin yerin deyil ki, hər gələnə pay verəsən! QarabağAzərbaycan xalqınındır!

Beləliklə, N.Nərimanovun ciddi müqavimətindən sonra, iyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenumun RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti statusu verilsin". Qərarda, həmçinin, göstərilirdi ki, Azərbaycan K(b)P MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhəddini, ərazisinin həcmini müəyyən etsin və onu RK(b)P MK Qafqaz bürosunun təsdiqinə təqdim etsin.

N. Nərimanovun Naxçıvan haqqında 1920-ci il 1 dekabr tarixli bəyanatından 27 gün sonra Ermənistan İnqilab Komitəsinin cavab bəyanatı verildi ki, Naxçıvanın taleyi əhalinin öhdəsinə buraxılmışdır.

1921-ci il martın 16-da Moskvada, həmin ilin oktyabrın 13-də isə Qarsda imzalanan müqavilələrdə Naxçıvanın Azərbaycan ərazisi olması beynəlxalq sazişlə təsdiqləndi. Naxçıvanın taleyinin həllində N.Nərimanovun həyata keçirdiyi milli maraqlara söykənmiş, düşünülmüş dövlət siyasəti, ardıcıl, strateji və taktiki addımlar silsiləsi, Azərbaycanın Türkiyə ilə gizli danışıqlarda razılaşdırılmış addımları, Mustafa Kamal Paşanın və N.Nərimanovun qiyabi və həmrəy danışıqları, Naxçıvan əhalisinin qətiyyəti belə uğurlu nəticə ilə başa çatdı. N. Nərimanov Ümumazərbaycan Sovetlər Qurultayında Naxçıvanla bağlı məsələni xüsusi vurğulamışdır ki, sovet Rusiyası ilə Türkiyə arasındakı müqaviləyə əsasən Naxçıvan Azərbaycanın protektoratlığı altında bir respublika kimi tanınacaq və Azərbaycan nümayəndə heyəti bu işdə var qüvvəsi ilə çalışacaqdır. Türkiyə-Rusiya danışıqlarında məhz Azərbaycanın təkidi ilə Naxçıvan məsələsinin müzakirə edilməsinə nail olunmuş və Türkiyənin təkidi ilə bu məsələnin Azərbaycanın xeyrinə həlli təmin olunmuşdur. Azərbaycan tərəfi hələ Qars müqaviləsi qəbul olunmamışdan əvvəl 1921-ci il avqustun 14-də Naxçıvan və Ermənistan rəhbərliyinə teleqram vuraraq tələb etmişdi ki, "Ermənistan XKS tərəfindən göndərilən bütün şəxslər təcili olaraq Naxçıvandan çıxarılsınlar".

O vaxtlar ərazi problemləri bolşeviklərin siyasətində Sovet Hakimiyyətini qurmaq üçün şirnikdirici amil kimi istifadə olunurdu. Azərbaycanda sovet hakimiyyətinin qurulması ərəfəsində Naxçıvan, Qarabağ, Zəngəzur və Zaqatalanın Azərbaycan ərazisi olması dəfələrlə etiraf edilsə də, Gürcüstanın sovetləşmə növbəsi çatanda Rusiya artıq Zaqatalanın gürcülərin xeyrinə mübahisəli olduğu haqda saziş imzaladı. Ermənistanda sovet hakimiyyəti qurulduğu gün, yəni dekabrın 1-də Naxçıvanı, Zəngəzuru, Qarabağı onlara vermək haqqında Azərbaycanın bəyanatına nail oldular. 1920-ci il dekabrın 2-də Rusiya ilə artıq sovetləşmiş Ermənistan arasında imzalanan sazişdə Zəngəzur Ermənistan ərazisi kimi göstərilmişdisə də, Naxçıvan və Qarabağ haqqında heç bir qeyd olmamışdı. 1917-ci ilin fevralından 1918-ci ilin mayına qədər Milli Şuranın, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzləşdiyi ərazi mübahisələri 1920-ci ilin aprelindən sonra da Azərbaycan sovet hökuməti qarşısında bütün ağırlığı ilə durmuşdu. Azərbaycanda sovet hakimiyyəti qurularkən Azərbaycan tərəfindən İrəvan xanlığının əraziləri rəsmi olaraq ermənilərə verilmiş, Borçalı və Dərbənd problemi gündəlikdən çıxarılmış, Qarabağda separatçı silahlı üsyan qaldırılmış, Naxçıvanda vəziyyət çox ağır olaraq qalmışdı. Zəngəzurun böyük hissəsinə erməni silahlı dəstələri tərəfindən nəzarət olunurdu. Qarabağ, Naxçıvan və Zəngəzur ermənilər tərəfindən iddialı ərazi olaraq qalırdı, Gürcüstan Zaqatalaya qarşı iddialarından əl çəkmədiyindən Zaqatala Rusiya-Gürcüstan müqaviləsi ilə mübahisəli ərazi kimi müəyyənləşmiş, sovet Rusiyası Bakını mənimsəmək planlarını hələ də qurmaqda davam edirdi.

***(Davamı var)***



*Nəriman Nərimanov, 1920.*



*Sevindik NƏSİBOĞLU,*
*gənc yazar*